AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirinin
3-29/3-2-548F/2025/1 nömrəli
08.09. 2025-ci il tarixli əmri ilə
təsdiq edilmişdir.

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L P R O Q R A M I

İxtisasın şifri və adı: 7004006 – Maliyyə

BAKI - 2025

AZƏRBAYCAN UNİVERSİTETİ

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

İxtisasın şifri və adı: 7004006 - Maliyyə
İxtisaslaşma: Vergi və vergitutma

BAKI - 2025

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004006 - Maliyyə** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramının Çərçivə Sənədi", eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** Təhsil proqramının sonunda **7004006 - Maliyyə** ixtisasının **Vegi və vegiqoyma** ***ixtisaslaşması*** üzrə məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**2.2.1 Vergi və vergitutma ixtisaslaşması üzrə**

- yeni fəaliyyət növləri üzrə vergi öhdəliyinin icrası mexanizmini müəyyən etmək;
- vergitutma bazasının genişləndirilməsi məqsədilə yeni mənbə aşkar etmək;
- vergi planlaması aparmaq;
- vergi yükünün optimallaşdırılması istiqamətində strategiya fomalaşdırmaq;
- əməliyyatlar üzrə vergi öhdəliklərinin icrasına nəzarəti təmin etmək;
- ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı hökumətlərarası müqavilə mətnləri layihələri hazırlamaq;
- vergitutma sahəsində rəqəmsal texnologiyaların tətbiqinin səmərəliliyini qiymətləndirmək və rəy vermək;
- vergi sahəsində müvafiq qanunvericiliyin və ona edilən dəyişikliklərin tətbiqinə nəzarət etmək.

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Vergi və vergitutma | Magistr ali | 2 il | 120 |

**3.2.** Vergi və vergiqoyma ixtisaslaşması üzrə təhsil proqramı 120 (2 il) AKTS kreditindən ibarətdir. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları**[1]<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | | 6 |
| 3 | **Tədqiqat analitikası**[1]<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq (“Excel”, “SPSS”, “Stata”, “R”, “MAXQDA”, “Matlab”, “Python” və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin<br>əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**[3]<br>ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır. **4** | | 54 |
| 4 | **Maliyyənin müasir problemləri**<br>Bu fənn müasir dövrdə qlobal və milli maliyyə sistemlərində baş verən dəyişiklikləri, yenilikləri və problemləri əhatə edir. Mövzularda beynəlxalq maliyyə bazarlarının inteqrasiyası, maliyyə risklərinin idarə olunması, rəqəmsal maliyyə alətləri, kriptovalyutalar, maliyyə sabitliyi və tənzimləmə mexanizmləri, həmçinin davamlı maliyyələşmə və yaşıl maliyyə kimi aktual məsələlər araşdırılır. Fənn həm nəzəri əsaslara, həm də praktik məsələlərin təhlilinə əsaslanır.<br>Bu fənnin əsas məqsədi magistrantlara müasir maliyyə mühitində baş verən prosesləri anlamaq, yaranan problemləri təhlil etmək və onların həlli üçün elmi əsaslı yanaşmalar formalaşdırmaq bacarığı qazandırmaqdır. | | 6 |

| | | | |
|---|---|---|---|
| 5 | **Vergi nəzəriyyəsi və vergi siyasəti**<br>Bu fənn vergi sisteminin nəzəri əsaslarını, vergi siyasətinin mahiyyətini, məqsədlərini və onun iqtisadiyyata təsir mexanizmlərini öyrənməyə yönəlib. Mövzularda vergi anlayışı və prinsipləri, vergi sistemlərinin quruluşu, vergi yükü və onun bölgüsü, vergi ədaləti, fiskal və stimullaşdırıcı siyasət, beynəlxalq vergi münasibətləri, həmçinin vergi inzibatçılığı və vergi tənzimlənməsi məsələləri əhatə olunur. Fənn həm nəzəri konsepsiyaları, həm də milli və beynəlxalq vergi təcrübəsinin təhlilini özündə birləşdirir.<br>Fənnin əsas məqsədi magistrantlara vergi nəzəriyyəsinin elmi əsaslarını mənimsətmək, vergi siyasətinin formalaşma prinsiplərini və onun iqtisadi proseslərə təsirini dərk etməyə imkan yaratmaq, həmçinin milli və beynəlxalq səviyyədə vergi siyasətinin təhlilini aparmaq bacarığı qazandırmaqdır. | | 6 |
| 6 | **Vergi uçotu və nəzarəti**<br>Bu fənn vergi uçotunun nəzəri və praktiki əsaslarını, vergi nəzarətinin mahiyyətini və onun həyata keçirilmə mexanizmlərini əhatə edir. Mövzularda vergi öhdəliklərinin uçotu prinsipləri, vergi hesabatlarının tərtibi, vergi yoxlamalarının növləri və metodikası, vergi nəzarətinin hüquqi bazası, risk əsaslı nəzarət sistemi, elektron audit və rəqəmsal uçot alətləri kimi müasir istiqamətlər araşdırılır. Fənn həm vergi inzibatçılığı, həm də müəssisə səviyyəsində vergi uçotu proseslərinin təkmilləşdirilməsi yollarını öyrədir.<br>Fənnin məqsədi magistrantlara vergi uçotu və nəzarətinin nəzəri əsaslarını və praktik mexanizmlərini mənimsətmək, vergi nəzarəti prosesinin təşkili və idarə edilməsində analitik düşünmə və qərarvermə bacarığı formalaşdırmaqdır. | | 6 |
| 7 | **Vergi auditi**<br>Bu fənn vergi auditinin mahiyyətini, məqsədini, prinsiplərini və həyata keçirilmə mexanizmlərini əhatə edir. Fənn çərçivəsində vergi auditinin nəzəri əsasları, vergi yoxlamalarının növləri və mərhələləri, audit sübutlarının toplanması, risk əsaslı audit yanaşmaları, audit hesabatlarının hazırlanması, eləcə də milli və beynəlxalq vergi audit təcrübəsi öyrənilir. Bundan əlavə, rəqəmsal audit texnologiyaları, elektron audit sistemləri və vergi şəffaflığının təmin olunmasında auditin rolu da təhlil edilir.<br>Fənnin əsas məqsədi magistrantlara vergi auditinin nəzəri və metodoloji əsaslarını mənimsətmək, audit prosesinin düzgün təşkili və idarə edilməsi bacarığını formalaşdırmaq, həmçinin vergi risklərinin qiymətləndirilməsi və vergi intizamının təmin olunması üzrə analitik yanaşmalar qazandırmaqdır. | | 6 |
| 8 | **Vergi planlaşdırılması və startegiyası**<br>Bu fənn müəssisə və dövlət səviyyəsində vergi planlaşdırılmasının nəzəri və praktiki əsaslarını, vergi strategiyasının formalaşdırılması prinsiplərini və məqsədlərini əhatə edir. Fənn çərçivəsində vergi yükünün optimallaşdırılması, vergi risklərinin idarə edilməsi, qanuni vergi azaldılması üsulları (vergi optimizasiyası), beynəlxalq vergi planlaşdırılması, ikili vergitutmanın aradan qaldırılması və vergi strategiyasının iqtisadi inkişafla uzlaşdırılması kimi mövzular öyrənilir. Eyni zamanda rəqəmsal iqtisadiyyatda və qlobal maliyyə sistemində vergi strategiyasının dəyişən trendləri də təhlil olunur. | | 6 |

| | | | |
|---|---|---|---|
| | Fənnin məqsədi magistrantlara vergi planlaşdırılmasının nəzəri əsaslarını və praktik metodlarını mənimsətmək, müəssisə və dövlət səviyyəsində səmərəli vergi strategiyasının hazırlanması və tətbiqinə dair analitik və strateji düşünmə bacarığı formalaşdırmaqdır. | | |
| 9 | **Vergi borclarının tənzimlənməsi**<br>Bu fənn vergi borclarının yaranma səbəblərini, onların uçotu, idarə olunması və tənzimlənməsi mexanizmlərini əhatə edir. Fənn çərçivəsində vergi borclarının hüquqi-normativ əsasları, borcun restrukturizasiyası, silinməsi, təxirə salınması, güzəştlər və vergi ödəyicilərinin məsuliyyəti məsələləri öyrənilir. Həmçinin, vergi borclarının idarə edilməsində informasiya texnologiyalarının və elektron xidmətlərin tətbiqi, borclu vergi ödəyiciləri ilə münasibətlərin etik və inzibati aspektləri, həmçinin beynəlxalq təcrübədə borc tənzimlənməsi mexanizmləri təhlil olunur.<br>Fənnin əsas məqsədi magistrantlara vergi borclarının yaranması, uçotu və idarə olunması proseslərinin elmi-nəzəri əsaslarını mənimsətmək, vergi borclarının tənzimlənməsi sahəsində analitik və idarəetmə bacarıqları formalaşdırmaqdır. | | 6 |
| 10 | **Vergiqoymada rəqəmsal texnologiyalar**<br>Bu fənn vergiqoyma prosesində rəqəmsal texnologiyaların rolunu, tətbiq sahələrini və iqtisadi təsirlərini öyrənməyə yönəlib. Fənn çərçivəsində elektron vergi inzibatçılığı, rəqəmsal hesabat sistemləri, onlayn vergi nəzarəti, blokçeyn texnologiyası, süni intellekt və böyük verilənlərin (Big Data) vergi idarəçiliyində tətbiqi kimi mövzular araşdırılır. Bundan əlavə, rəqəmsal iqtisadiyyat şəraitində vergiqoymanın yeni çağırışları, elektron ticarətin və kriptovalyutaların vergiyə cəlb edilməsi məsələləri, həmçinin beynəlxalq rəqəmsal vergi təcrübəsi də təhlil edilir.<br>Fənnin əsas məqsədi magistrantlara rəqəmsal texnologiyaların vergiqoyma prosesinə təsirini, bu sahədə yenilikləri və çağırışları anlamaq, rəqəmsal vergi idarəçiliyi və nəzarət sistemləri üzrə analitik və tətbiqi bacarıqlar qazandırmaqdır. | | 6 |
| 11 | **Beynəlxalq veritutma**<br>Bu fənn beynəlxalq vergi sistemlərinin nəzəri və praktiki əsaslarını, dövlətlərarası vergi münasibətlərini və qlobal iqtisadi inteqrasiyanın vergi siyasətinə təsirlərini əhatə edir. Fənn çərçivəsində beynəlxalq vergitutmanın prinsipləri, ikili vergitutmanın aradan qaldırılması mexanizmləri, beynəlxalq vergi sazişləri, transfer qiymətləri siyasəti, offşor zonalar, vergi rəqabəti, eləcə də çoxmillətli şirkətlərin vergi planlaşdırması məsələləri öyrənilir. Bundan əlavə, OECD-nin BEPS (Base Erosion and Profit Shifting) təşəbbüsləri və qlobal minimum vergi tətbiqi kimi müasir tendensiyalar da təhlil olunur.<br>Fənnin əsas məqsədi magistrantlara beynəlxalq vergitutmanın nəzəri əsaslarını, beynəlxalq vergi münasibətlərinin tənzimlənməsi mexanizmlərini və qlobal vergi siyasətində baş verən yenilikləri mənimsətmək, bu sahədə analitik düşünmə və tədqiqat bacarıqları formalaşdırmaqdır. | | 6 |
| 12 | **Vergi risklərinin idarə olunması**<br>Bu fənn vergi risklərinin mahiyyətini, onların yaranma səbəblərini, təsnifatını və idarə olunması mexanizmlərini öyrənməyə yönəlib. Fənn çərçivəsində vergi risklərinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və azaldılması metodları, risk əsaslı vergi nəzarəti sistemi, vergi inzibatçılığında risklərin idarə olunmasının institusional və texnoloji | | 6 |

| | | | |
|---|---|---|---|
| | alətləri araşdırılır. Həmçinin, vergi ödəyiciləri və vergi orqanları üçün risklərin qarşılıqlı təsiri, beynəlxalq təcrübədə risk idarəetmə modelləri və rəqəmsal texnologiyaların bu sahədə tətbiqi də fənnin əsas istiqamətlərindəndir.<br>Fənnin əsas məqsədi magistrantlara vergi risklərinin idarə olunmasının nəzəri və praktiki əsaslarını mənimsətmək, vergi inzibatçılığı və müəssisə səviyyəsində risklərin təhlili, qiymətləndirilməsi və azaldılması üzrə analitik və idarəetmə bacarıqları formalaşdırmaqdır. | | |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər[4]** | | |
| 13 | **Dövlət büdcəsisnin gəlir və xərcləri**<br>Bu fənn dövlət büdcəsinin iqtisadi mahiyyətini, onun gəlir və xərclər strukturunu, formalaşma və idarə olunma prinsiplərini əhatə edir. Fənn çərçivəsində büdcə gəlirlərinin mənbələri, vergi və qeyri-vergi daxilolmalarının rolu, büdcə xərclərinin istiqamətləri, büdcə siyasətinin sosial-iqtisadi məqsədləri və fiskal sabitliyin təmin olunması məsələləri öyrənilir. Həmçinin, büdcə gəlir və xərclərinin planlaşdırılması, icrası və nəzarət mexanizmləri, dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi, eləcə də beynəlxalq büdcə təcrübələri də təhlil edilir.<br>Fənnin əsas məqsədi magistrantlara dövlət büdcəsinin gəlir və xərclərinin formalaşması, idarə olunması və tənzimlənməsi üzrə nəzəri və praktiki biliklər qazandırmaq, büdcə siyasətinin iqtisadi inkişafda rolunu dərk etmək və analitik qiymətləndirmə bacarığı formalaşdırmaqdır.<br><br>**Dövlət maliyyəsində vergi siyasəti**<br>Bu fənn dövlət maliyyəsinin formalaşmasında vergi siyasətinin rolunu və onun iqtisadi, sosial və fiskal təsirlərini öyrənir. Fənn çərçivəsində vergi siyasətinin prinsipləri, məqsədləri və vasitələri, vergitutma sistemlərinin struktur xüsusiyyətləri, vergi yüklərinin bölgüsü, vergi güzəştləri və stimul mexanizmləri, habelə dövlət büdcəsi və vergi siyasəti arasında əlaqələr araşdırılır. Eyni zamanda beynəlxalq təcrübədə vergi siyasətinin tətbiqi, rəqəmsal iqtisadiyyatda vergi siyasətinin yenilikləri və sosial-iqtisadi balansın qorunması məsələləri də fənnin mövzularındandır.<br>Fənnin məqsədi magistrantlara dövlət maliyyəsində vergi siyasətinin nəzəri əsaslarını və tətbiq mexanizmlərini mənimsətmək, vergi siyasətinin iqtisadi inkişaf, sosial ədalət və fiskal stabillik üzrə təsirlərini analiz etmək bacarığı formalaşdırmaqdır. | | 6 |
| 14 | **Korporativ maliyyə**<br>Bu fənn korporativ maliyyənin nəzəri və praktik əsaslarını, şirkətlərin maliyyə qərarlarının formalaşması və idarə olunmasını öyrənir. Fənn çərçivəsində korporativ maliyyə menecmentinin prinsipləri, kapital strukturu, maliyyə planlaşdırılması, investisiya qiymətləndirilməsi, risklərin idarə olunması, dividend siyasəti, likvidlik və maliyyə dayanıqlığı məsələləri təhlil olunur. Eyni zamanda, korporativ maliyyə qərarlarının iqtisadi nəticələri, maliyyə bazarları və korporativ strategiyalarla əlaqəsi, eləcə də beynəlxalq maliyyə təcrübəsi öyrənilir.<br>Fənnin əsas məqsədi magistrantlara korporativ maliyyənin nəzəri əsaslarını mənimsətmək, maliyyə qərarlarının qəbulunda analitik və idarəetmə bacarıqları formalaşdırmaq, eləcə də şirkətlərin dayanıqlı | | 6 |

| | | | |
|---|---|---|---|
| | maliyyə inkişafını təmin etmək üçün strategiyaların hazırlanması üzrə bilik və bacarıqları inkişaf etdirməkdir.<br><br>**Korporativ vergi strategiyası**<br>Bu fənn korporativ vergi strategiyasının nəzəri və praktik əsaslarını, şirkətlərin vergi planlaşdırması və vergi risklərinin idarə olunmasını öyrənir. Fənn çərçivəsində korporativ vergi siyasətinin prinsipləri, vergi planlaşdırma metodları, beynəlxalq vergi strategiyaları, transfer qiymətləndirmələri, vergi güzəştləri və stimullar, eləcə də vergi optimallaşdırılması və risklərin azaldılması vasitələri araşdırılır. Həmçinin, rəqəmsal iqtisadiyyat və beynəlxalq vergi təcrübəsi şəraitində korporativ vergi strategiyalarının formalaşdırılması və tətbiqi məsələləri də fənnin mövzularındandır.<br>Fənnin əsas məqsədi magistrantlara korporativ vergi strategiyasının nəzəri və praktiki əsaslarını mənimsətmək, şirkətlərin vergi planlaşdırması və vergi risklərinin idarə olunması üzrə analitik və tətbiqi bacarıqlar formalaşdırmaqdır. | | |
| 15 | **Vergi inzibatçılığı**<br>Bu fənn vergi inzibatçılığının nəzəri və praktiki əsaslarını, vergi orqanlarının fəaliyyətini və vergi qanunvericiliyinin tətbiqini öyrənir. Fənn çərçivəsində vergi nəzarətinin təşkili, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi auditinin prinsipləri, vergi tənzimləməsi və icrası, vergi intizamının təmin edilməsi və vergi mübahisələrinin həlli məsələləri araşdırılır. Həmçinin, fənn vergi inzibatçılığında risk əsaslı nəzarət, rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq təcrübə mövzularını əhatə edir.<br>Fənnin məqsədi magistrantlara vergi inzibatçılığı sahəsində nəzəri və praktiki biliklər vermək, vergi nəzarəti və tənzimləmənin effektivliyini artırmaq bacarığı formalaşdırmaq, eləcə də vergi risklərinin idarə olunması və mübahisələrin həlli üzrə analitik düşüncə qabiliyyətini inkişaf etdirməkdir.<br><br>**Vergi prosedurları və icraatı**<br>Bu fənn vergi prosedurlarının və icraatının nəzəri və praktiki əsaslarını öyrənməyə yönəlib. Fənn çərçivəsində vergi qanunvericiliyinə uyğun olaraq vergi hesabatlarının hazırlanması, vergi öhdəliklərinin müəyyənləşdirilməsi və icrası, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin tənzimlənməsi, vergi audit prosedurları, vergi borclarının yığımı və inzibatçılığı araşdırılır. Həmçinin, fənn vergi mübahisələrinin həlli, icra mexanizmləri və beynəlxalq təcrübədə vergi prosedurlarının təşkili məsələlərini də əhatə edir.<br>Fənnin məqsədi magistrantlara vergi prosedurları və icraatı üzrə nəzəri və praktiki biliklər vermək, vergi borclarının düzgün müəyyənləşdirilməsi və icrasını təmin etmək bacarığı formalaşdırmaq, həmçinin vergi audit və mübahisə hallarının idarə olunması üzrə analitik və idarəetmə bacarıqlarını inkişaf etdirməkdir. | | 6 |
| **Təcrübə** | | | |
| 16 | **Elmi-pedaqoji təcrübə** | | 6 |
| 17 | **Elmi tədqiqat təcrübəsi**[5] | | 6 |

| | | | |
|---|---|---|---|
| **Dissertasiya işi** | | | |
| 18 | **Magistrlik dissertasiyası**[6] | | 18 |
| **CƏMİ** | | | **120** |

---

[1] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[3] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

[4] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

[5] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[6] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

**4.2.** İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

**4.3.** İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

**4.4.** Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

**5.1.** Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**7004006 - Maliyyə proqramı üzrə, Vergi və vergitutma ixtisaslaşması üzrə məzunlar dövlət və özəl sektorda aşağıdakı peşələrdə işləyə biləcəklər:**

- Vergi müfəttişi;
- Vergi məsləhətçisi;
- Vergi auditoru;
- İxtisası/ixtisaslaşması üzrə müəllim/elmi işçi və s.

**6.1.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir;

**6.2.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər;

**6.3.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**7004006 - Maliyyə ixtisasının Vergi və vergitutma ixtisaslaşması üzrə** ***proqramın təlimnəticələri*** aşağıdakılardır:

| **Vergi və vergitutma ixtisaslaşması üzrə proqramın təlim nəticələri (PTN)** |
|---|
| 1. Vergi öhdəliyinin icrası mexanizmini müəyyən edir |
| 2. Vergitutma bazasını müəyyən edir |
| 3. Vergi planlaması edir |
| 4. Vergi yükünü optimallaşdırır |
| 5. Əməliyyatlar üzrə vergi öhdəliklərinin icrasına nəzarət edir |
| 6. Hökumətlərarası müqavilə mətnləri layihələri hazırlayır |
| 7. Vergitutma sahəsində rəqəmsal texnologiyaların tətbiqinin səmərəliliyini qiymətləndirir |
| 8. Vergi və vergitutma ilə bağlı qanunvericilikdən istifadəyə nəzarət edə bilir |

Əlavə 2

**FƏNLƏR ÜZRƏ FƏNN TƏLİMİ NƏTİCƏLƏRİ (FTN)**
**MƏCBURİ FƏNNLƏR ÜZRƏ**

| **"Tədqiqat metodları"fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3.** Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4.** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq ede biləcək. |
| **"Akademik yazı və etika" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2. Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3. Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən |

| |
|---|
| (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4. Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5. Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6. Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Tədqiqat analitikası" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. FTN 2. Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| FTN 3. Ferqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4. Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5. Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6. Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |
| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Ixtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından \| (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |
| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Ixtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2. Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |

| |
|---|
| FTN 3. Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4. Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5. Teədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6. Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |
| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2. Ixtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3. Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4. Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5. Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6. Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

***Maliyyənin müasir problemləri***

| |
|---|
| 1. Müasir maliyyə sistemində mövcud olan əsas problemləri (fiskal qeyri-sabitlik, dövlət borcu, vergi yığımında çətinliklər və s.) təhlil edə bilir; |
| 2. Qlobal və milli miqyasda maliyyə bazarlarında yaranan riskləri və böhranların səbəblərini analiz edir; |
| 3. Monetar və fiskal siyasət alətlərinin müasir iqtisadi şəraitdə tətbiqini qiymətləndirir; |
| 4. Maliyyə sabitliyinin qorunması məqsədilə tətbiq edilən beynəlxalq tənzimləmə mexanizmlərini (Bazel razılaşmaları, OECD standartları və s.) araşdırır; |
| 5. İqlim dəyişikliyi, yaşıl maliyyə, ESG investisiya prinsipləri kimi yeni maliyyə çağırışlarına cavab verə bilir; |
| 6. Azərbaycanın maliyyə və vergi sistemində mövcud olan aktual problemləri təhlil edir və əsaslandırılmış təkliflər hazırlayır; |
| 7. Maliyyə və vergi sahəsində müstəqil analitik və tədqiqat işi aparmaq, siyasət sənədləri hazırlamaq və qərarvermə prosesinə töhfə vermək bacarığına yiyələnir. |

*Vergi nəzəriyyəsi və vergi siyasəti*

| | |
|---|---|
| 1. | Vergilərin iqtisadi və hüquqi mahiyyətini, tarixi inkişaf mərhələlərini və vergiqoymanın əsas prinsiplərini izah edə bilir; |
| 2. | Vergi sistemlərinin qurulması modellərini (proqressiv, proporsional, regresiv və s.) təhlil edir və onların sosial-iqtisadi nəticələrini qiymətləndirir; |
| 3. | Vergi siyasətinin makroiqtisadi göstəricilərə (artım, məşğulluq, inflyasiya və s.) təsirini təhlil edir; |
| 4. | Fiskal siyasətin tərkib hissəsi kimi vergi siyasətinin dövlət büdcəsi və iqtisadi sabitlik baxımından rolunu qiymətləndirir; |
| 5. | Vergi güzəştləri və stimullarının iqtisadi əsaslandırılmasını və dövlət siyasətində istifadəsini təhlil edir; |
| 6. | Rəqəmsal iqtisadiyyat şəraitində vergiqoyma mexanizmlərində yaranan çağırışları dərk edir və alternativ həll yolları təklif edir; |
| 7. | Azərbaycan Respublikasının vergi sisteminin strukturu və vergi siyasətindəki islahatları təhlil edir, təkliflər irəli sürür; |
| 8. | Vergi nəzəriyyəsi və siyasəti sahəsində tədqiqat aparmaq, analitik hesabatlar hazırlamaq və vergi qərarlarının iqtisadi əsaslarını vermək bacarığına yiyələnir. |

*Vergi uçotu və nəzarəti*

| | |
|---|---|
| 1. | Vergi uçotunun məqsədlərini və prinsiplərini, digər uçot sistemləri ilə əlaqəsini izah edə bilir; |
| 2. | Vergi növləri üzrə uçotun aparılma qaydalarını (ƏDV, mənfəət vergisi, gəlir vergisi, sadələşdirilmiş vergi və s.) təhlil edir və hesabat formalarını hazırlayır; |
| 3. | Vergi bəyannamələrinin düzgün və qanunvericiliyə uyğun şəkildə tərtib olunması bacarığına yiyələnir; |
| 4. | Vergitutma obyektlərinin və vergi bazasının uçotda əks olunması ilə bağlı praktiki vərdişlər əldə edir; |
| 5. | Vergi yoxlamalarının növləri və aparılma qaydaları, habelə vergi nəzarətinin formaları (əməliyyat nəzarəti, kassa nəzarəti, səyyar və kameral yoxlamalar və s.) üzrə biliklərə malik olur; |
| 6. | Vergi orqanlarının nəzarət funksiyalarını, onların səlahiyyətlərini və vergi ödəyicilərinin hüquq və vəzifələrini təhlil edir; |
| 7. | Elektron vergi uçotu sistemləri və rəqəmsal vergi inzibatçılığı sahəsində müasir yanaşmaları təhlil edir və tətbiq edə bilir; |
| 8. | Azərbaycan Respublikasında vergi uçotu və nəzarəti ilə bağlı qanunvericiliyin tətbiqinə dair analitik və praktik təhlillər aparmaq, hüquqi-normativ aktlara əsaslanan qərarlar vermək bacarığına yiyələnir. |

*Vergi auditi*

| | |
|---|---|
| 1. | Vergi auditinin məqsədi, funksiyaları və prinsiplərini izah edə bilir, onu digər audit növlərindən fərqləndirir; |
| 2. | Vergi auditinin hüquqi-normativ bazasını (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, “Audit fəaliyyəti haqqında” Qanun və digər normativ aktlar) təhlil edir; |

| | |
|---|---|
| 3. | Vergi auditinin təşkilati mərhələlərini (hazırlıq, planlaşdırma, icra, hesabatlandırma) izah edir və praktikada tətbiq edir; |
| 4. | Vergi pozuntularını və vergidən yayınma hallarını müəyyən etmək üçün istifadə olunan audit metodlarını (sənədlərin təhlili, müqayisəli analiz, kros-kontrollar və s.) tətbiq edir; |
| 5. | Müəssisələrin maliyyə sənədləri və vergi hesabatları əsasında audit yoxlamaları aparmaq, riskli sahələri müəyyən etmək bacarığına yiyələnir; |
| 6. | Elektron audit və rəqəmsal audit texnologiyaları (e-audit sistemləri, avtomatlaşdırılmış yoxlamalar və s.) üzrə əsas anlayışlara və tətbiq imkanlarına yiyələnir; |
| 7. | Vergi auditi sahəsində müstəqil tədqiqat aparmaq, analitik hesabatlar hazırlamaq və iqtisadi-hüquqi tövsiyələr vermək bacarığına sahib olur. |

*Vergi planlaşdırması və strategiyası*

| | |
|---|---|
| 1. | Vergi planlaşdırmasının nəzəri əsaslarını və məqsədlərini izah edir, vergi planlaşdırması ilə vergi yayınması arasındakı fərqi müəyyən edir; |
| 2. | Vergi yükünün optimallaşdırılması və vergi xərclərinin azaldılması üçün qanuni metodları təhlil və tətbiq edə bilir; |
| 3. | Vergi strategiyasının hazırlanması prosesini, onun mərhələlərini və uzunmüddətli vergi siyasətinə təsirini təhlil edir; |
| 4. | Vergi risklərinin müəyyən olunması və idarə olunması yollarını müəyyənləşdirir; |
| 5. | Azərbaycanın vergi qanunvericiliyi çərçivəsində vergi planlaşdırmasının tətbiq imkanlarını qiymətləndirir və real praktik nümunələr əsasında analiz aparır; |
| 6. | Rəqəmsal iqtisadiyyat şəraitində vergi planlaşdırmasının çağırışlarını və perspektivlərini dəyərləndirir; |
| 7. | Etik və hüquqi çərçivəyə uyğun vergi strategiyalarının hazırlanması üzrə qərarvermə bacarıqları nümayiş etdirir; |
| 8. | Vergi planlaşdırması və strategiyası üzrə tədqiqat aparmaq, analitik hesabatlar və tövsiyələr hazırlamaq bacarığına yiyələnir. |

*Vergi borclarının tənzimlənməsi*

| | |
|---|---|
| **1.** | Vergi borcunun anlayışını, yaranma səbəblərini və hüquqi əsaslarını **izah edir;** |
| **2.** | Vergi borcunun uçotu, sənədləşdirilməsi və dövlət orqanları tərəfindən tanınması prosedurlarını **izah edir;** |
| **3.** | Vergi ödəyicisinin və vergi orqanlarının borcların tənzimlənməsi prosesindəki hüquq və vəzifələrini **dəyərləndirir;** |
| **4.** | Vergi borclarının alınması, gecikdirilməsi, bölünməsi və silinməsi ilə bağlı qanunvericilik çərçivəsini **təhlil edir;** |
| **5.** | Vergi borcları üzrə faizlər, cərimələr və maliyyə sanksiyalarının hesablanması və tətbiq mexanizmlərini **tətbiq edə bilir;** |
| **6.** | Borclu vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin tənzimlənməsi yollarını **(restrukturizasiya, barışıq sazişləri, məhkəmə prosedurları və s.) təhlil edir;** |
| **7.** | Vergi borclarının idarə olunması və tənzimlənməsi ilə bağlı analitik təhlillər aparmaq, təkliflər hazırlamaq və qərarvermə prosesinə töhfə vermək bacarığına yiyələnir. |

*Vergiqoymada rəqəmsal texnologiyalar*

| | |
|---|---|
| **1.** | Vergiqoymada rəqəmsal texnologiyaların mahiyyətini və əhəmiyyətini izah edir; |
| **2.** | Vergiqoyma proseslərində istifadə olunan müasir informasiya və kommunikasiya texnologiyalarını (İKT) təsvir edir; |
| **3.** | Elektron vergi hesabatlığının prinsiplərini, metod və alətlərini təhlil edir; |
| **4.** | Vergi nəzarətində data analitikası, böyük verilənlər (Big Data) və süni intellekt texnologiyalarının tətbiqini izah edir; |
| **5.** | Vergiqoymada kibertəhlükəsizlik məsələlərini müəyyən edir və risklərin idarə olunması üzrə tədbirlər təklif edir; |
| **6.** | Vergiqoyma sahəsində rəqəmsal transformasiya ilə bağlı innovasiyaların tətbiqinə dair praktik layihələr hazırlayır; |
| **7.** | Rəqəmsal texnologiyalar vasitəsilə vergi proseslərinin optimallaşdırılması və effektivliyinin artırılması üzrə analitik hesabatlar hazırlamaq bacarığına malik olur. |

*Beynəlxalq vergitutma*

| | |
|---|---|
| **1.** | Beynəlxalq vergitutmanın əsas anlayışlarını, prinsiplərini və hüquqi bazasını **izah edir;** |
| **2.** | Beynəlxalq vergi müqavilələrinin (ikiqat vergitutmanın qarşısının alınması) mahiyyətini və tətbiq sahələrini **təhlil edir;** |
| **3.** | Beynəlxalq vergitutmanın iqtisadi, hüquqi və sosial aspektlərini müqayisəli təhlil edir; |
| **4.** | Vergi bazasının aşınması və mənfəətin yerdəyişməsi (BEPS) proqramının məqsəd və alətlərini **təhlil edir;** |
| **5.** | Milli vergi sistemləri ilə beynəlxalq vergi normalarının uzlaşdırılması yollarını müəyyən edir; |
| **6.** | Beynəlxalq vergi siyasətinin formalaşmasında müasir trendləri və çağırışları qiymətləndirir; |
| **7.** | Beynəlxalq vergi hesabatlığı və şəffaflıq standartlarını təhlil edir; |
| **8.** | Beynəlxalq vergitutma sahəsində analitik araşdırmalar aparmaq və müvafiq qərarvermə prosesində iştirak etmək bacarığına malik olur. |

Fənn: *Vergi risklərinin idarə olunması*

| | |
|---|---|
| **1.** | Vergi risklərinin anlayışını, növlərini və təsnifatını **izah edir;** |
| **2.** | Vergi risklərinin yaranma səbəblərini və onlara təsir edən daxili və xarici amilləri **təhlil edir;** |
| **3.** | Vergi risklərinin müəyyənləşdirilməsi, ölçülməsi və qiymətləndirilməsi metodlarını **tətbiq edir;** |
| **4.** | Vergi risklərinin idarə olunması üzrə strategiya və siyasətlərin hazırlanma prinsiplərini **izah edir;** |
| **5.** | Vergi risklərinə qarşı uyğun qabaqlayıcı tədbirlər və sığorta mexanizmləri **üzrə təkliflər verir;** |
| **6.** | Vergi orqanları və vergi ödəyiciləri arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində risklərin azaldılması yollarını **müəyyən edir;** |
| **7.** | Vergi risklərinin idarə olunmasına dair analitik hesabatlar, tövsiyələr və qərarvermə sənədləri hazırlamaq bacarığına **malik olur.** |

Əlavə 3

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

### Tədqiqat yönümlü fənlər üzrə PTN-lərin uyğunluq matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1- Vergi sisteminin mahiyyətini və nəzəri əsaslarını dərin mənimsəyir | PTN 2- Vergi siyasətini və fiskal mexanizmləri təhlil edir | PTN 3- Elmi-tədqiqat metodlarını tətbiq edir və analitik düşünür | PTN 4- Peşəkar etik prinsiplərə və akademik dürüstlüyə əməl edir | PTN 5- Vergi idarəçiliyi və layihələrin idarə olunması bacarığına malikdir | PTN 6- Elmi nəticələri müstəqil tədqiqat və dissertasiya səviyyəsində təqdim edir |
|---|---|---|---|---|---|---|
| Tədqiqat metodları | ✓ | ✓ | ✓✓✓ | | ✓ | ✓ |
| Akademik yazı və etika | | | ✓ | ✓✓✓ | | ✓ |
| Layihələrin idarə olunması | ✓ | ✓ | | ✓ | ✓✓✓ | |
| Elmi-pedaqoji təcrübə | ✓ | | ✓ | ✓✓ | ✓ | ✓✓ |
| Elmi tədqiqat təcrübəsi | ✓✓ | ✓✓ | ✓✓✓ | ✓ | ✓ | ✓✓✓ |
| Magistrlik dissertasiyası | ✓✓ | ✓✓ | ✓✓✓ | ✓ | ✓✓ | ✓✓✓ |

### Qısaltmaların izahı:

✓ – bilik və bacarıqların ilkin səviyyədə formalaşmasını göstərir;
✓✓ – orta səviyyədə tətbiqetmə bacarığını göstərir;
✓✓✓ – yüksək səviyyəli (müstəqil) tətbiq və analitik bacarığı göstərir.

**Məcburi fənlər üzrəfənlər üzrə PTN-lərin uyğunluq matrisi Qiymətləndirmə meyarı:**
**Matrisin qısa şərhi**

Hazırlanmış matris “Vergi və vergiqoyma” ixtisaslaşması üzrə magistr hazırlığında tədris olunan fənlərin proqram təlim nəticələrinə təsir səviyyəsini əks etdirir. Matris vasitəsilə hər bir fənnin tələbələrin peşəkar kompetensiyalarının formalaşdırılmasına verdiyi töhfə müəyyən edilir.

| Fənlər | PTN1 | PTN2 | PTN3 | PTN4 | PTN5 | PTN6 | PTN7 | PTN8 |
|---|---|---|---|---|---|---|---|---|
| Maliyyənin müasir problemləri | ✓✓✓ | ✓✓ | ✓ | ✓✓ | ✓✓ | ✓ | ✓✓ | ✓✓✓ |
| Vergi nəzəriyyəsi və vergi siyasəti | ✓✓✓ | ✓✓✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓ | ✓✓ | ✓✓ |
| Vergi uçotu və nəzarəti | ✓✓ | ✓✓ | ✓✓✓ | ✓✓ | ✓ | ✓✓ | ✓ | ✓✓ |
| Vergi auditi | ✓✓ | ✓ | ✓✓✓ | ✓✓✓ | ✓ | ✓✓ | ✓✓ | ✓✓ |
| Vergi planlaşdırılması və strategiyası | ✓✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓ | ✓✓✓ | ✓✓ |
| Vergi borclarının tənzimlənməsi | ✓✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓ | ✓ | ✓✓ | ✓✓ |
| Vergiqoymada rəqəmsal texnologiyalar | ✓ | ✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓✓✓ | ✓✓ | ✓✓ |
| Beynəlxalq veritutma | ✓✓ | ✓✓ | ✓ | ✓✓ | ✓✓✓ | ✓ | ✓✓ | ✓✓ |
| Vergi risklərinin idarə olunması | ✓✓ | ✓ | ✓✓ | ✓✓✓ | ✓✓ | ✓✓ | ✓✓ | ✓✓ |

**Qısaltmaların izahı:**

- ✓ – bilik və bacarıqların ilkin səviyyədə formalaşmasını göstərir;
- ✓✓ – orta səviyyədə tətbiqetmə bacarığını göstərir;
- ✓✓✓ – yüksək səviyyəli (müstəqil) tətbiq və analitik bacarığı göstərir.

**Razılaşdırıldı:**

**Tədris şöbəsinin müdiri**
**________________f-r.ü.f.d.Leyla Ağamalıyeva**

**Beynəlxalq magistratura və Doktorantuara Mərkəzinin direktoru**

**______________t.ü.f.d.,dos.Nüşabə Quliyeva**

**Maliyyə və mühasibat kaferasının müdiri**

**___________i.e.n.,dos. Nəriman Böyükkişi**